Ədəbiyyat qəzeti

6 mart / 2021

*Azərbaycanın Xalq şairi*
*hörmətli Nəriman Həsənzadəyə*

Sizi - müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini "İstiqlal" ordeni ilə təltif olunmağınız və 90 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Şair, dramaturq və ictimai xadim kimi Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafına mühüm töhfələr vermiş, yaradıcılıq nümunələrinizlə geniş oxucu kütləsinin rəğbətini qazanmısınız. Qəhrəmanlıq tariximizi əks etdirən dramlarınızda, bədii-estetik kamilliyi ilə seçilən şeir və poemalarınızda xalqa, Vətənə dərin məhəbbət hissi, vətənpərvər sənətkar və ziyalı vətəndaş mövqeyi öz əksini tapmışdır.

Sizi bir daha təbrik edir, yaradıcılıq uğurları arzulayıram.

Hörmətlə,

***Vasif TALIBOV***

*Naxçıvan şəhəri,*
*19 fevral 2021-ci il*